## ÇƏRXİ DÖNMÜŞ DÜNYA

Ey dünya, insan sənə
Evim, məskənim - dedi.
Ana yurdum, el-obam,
Canım, Vətənim - dedi.
Amma başın qarışıb
Biganəsən sən indi,
İnsafın-mürüvvətin
Didərginmi düşübdür?
Ay qoca dünya, sənin
Çərxin niyə dönübdür?
Dərdlilərin dərdinə
"Yanıb" məlhəm olardın,
Sınan qəlbi oxşayıb
Ona həmdəm olardın,
Hamıya doğmalar tək
Yaxın, məhrəm olardın.
Bu duyğular, bu hisslər,
Nədən belə sönübdür?
Ay qoca dünya, sənin
Çərxin niyə dönübdür?
Xeyirxahlıq əzəldən
Mayasıdır cahanın,
Fərqini itiribsən
Sən yaxşının, yamanın,
Qan-qadalar deyirsən -
Günahıdır zamanın?
Böhtan atma zamana
Zaman dərdə düşübdür...
Ay qoca dünya, sənin
Çərxin niyə dönübdür?
Qanlı müharibələrdən
Cana doyubdur insan.
Torpaq qanla sulanır,
Nə halətdir ay aman...
Südəmər körpənin də
Gözü yaşlı, bağrı qan
Anaların naləsi
Göyə bülənd olubdur.
Ay qoca dünya, sənin,
Çərxin niyə dönübdür?
Meydanda davakarlar,
At oynadır neyləyək?
Səndən sənə
Şikayətmi eyləyək ?
Daha bəsdir
Oyan görək, dur görək.
Qan-qadadan insanın
Gözündə nur sönübdür.
Ay qoca dünya, sənin
Çərxin niyə dönübdür?
Keçmişdə qarlı qışın
İsti yayın var idi.
Toy-düyünlü payızın,
Güllü yazın var idi.
Dərdsiz gözəllər təki
Qəmzən, nazın var idi...
Nədən bəs gözəllərin
Qəlbi qana dönübdür?
Ay qoca dünya, sənin
Çərxin niyə dönübdür?
Bu aləm yaranıbdır
Torpaqdan, sudan, oddan.
İnsan dünyaya gəldi
Bir atadan-anadan
Heç nə heç kimin deyil
Bir sahib var "Yaradan"
Tanrıdan, Yaradandan
Üzün yaman dönübdür,
Ay qoca dünya, sənin
Çərxin niyə dönübdür?
Haqqa həmdəm olanın
Haqq işinə yarı sən!
Qılıncını haqsıza çək,
Haqqa dost ol, yar ol sən
Nədəndir haqsızları
Haqqa hakim etmisən?
Elə bil ki, qəlbinə
Qara zülmət çökübdür.
Ay qoca dünya, sənin
Çərxin niyə dönübdür?
Üzündən zəhər yağan
Cəllada bənzəyirsən...
Zalımlara güc verib
Gücsüzləri əzirsən...
Aləm vecinə deyil
Veyil-veyil gəzirsən
Axı belə yaramaz
İnsanı dərd üzübdür...
Ay qoca dünya sənin
Çərxin niyə dönübdür?

## MƏNƏ SEVGİ VERİN

Mənə sevgi verin!
Qəmi, kədəri
Qovun həyatımdan
Cəhənnəm olsun.
Qara buludları
Dağıdın getsin
Göylərin sakini
Sülh quşu olsun.
Sevgini bol edin,
Qoy sevilənlər
Bir sevgi çələngi
Toxuya bilsin.
Sevgiyə, qayğıya
Möhtac bir ürək
Kükrəsin, qaynasın
Yaşaya bilsin.
Mənə sevgi verin
Silah verməyin,
Dava istəmirəm,
Qan istəmirəm.
Davanın aldığı
Can istəmirəm.
Sənə üz tuturam
Davakar insan.
Davaya susayan
Əcdadın inan,
Heç nə aparmadı...
Biləsən sən də
Özünlə, heç bir şey
Aparmayassan.
Sevgi istəyirəm,
Qəm istəmirəm.
Kədərsiz, qüssəsiz
İl istəyirəm.
Ey bəşər övladı!
Ey bəşər oğlu!
Gözü nəmləndirən,
qəlbi dağlayan
Zəhər tuluğu tək
Dil istəmirəm.
Mən də sevinərəm
Biri güləndə
Bu gülüş elə bil
Can məlhəmimdi.
Kimsə qəmlənəndə,
kədərlənəndə
Sanıram kədər də,
Qəm də mənimdi.
Mənə sevgi verin
Bağçada-bağda
Bir sevgi ağacı
Qoy mən də əkim.
Sevgi ağacının
Barı, bəhrəsi
Xəstə ürəklərə
Olsun bir həkim.
Mənə sevgi verin,
Uca dağlara
Başında yoxdursa
Qar səpələyim.
Zirvədən boylanıb
Ötən çağlara
Bir nəzər yetirim
Salam söyləyim
Mənə sevgi verin
Aləmə səpim
Düz-dünya sevgidən
Gül-çiçək açsın.
Mənə sevgi verin
Paylamaq üçün
İnsan libasını
Sevgidən biçsin!

## CAVABSIZ SEVGİ

Payızda saralmış yarpaq kimiyəm,
Ömrün qara yeli, saraldıb məni.
Ətirli bahara həsrət kimiyəm
Çəkdiyim xiffətin, saraldıb məni.

Dərdi dərdə qoşub vermisən mənə,
Qəm, kədər qalası tikmisən mənə,
Bircə söz nədir ki, demirsən mənə,
Cavabsız bir sevgi saraldıb məni.

Nə qədər gözləyim, nə qədər dözüm,
Həsrətli qəribtək yoldadır gözüm.
Tükənib taqətim, qurtarıb sözüm,
Bitən ümidlərim saraldıb məni.

Dünyanın gərdişi, işi belədir,
Qurudub çayları ümid selədir,
Sevgimin bilirsən, halı necədir?
Ona biganəlik saraldıb məni.



Akif TƏVƏKKÜLOĞLU